# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən silsilə tədbirlər

## Ankara




Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə bağlı Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) və Azərbaycanın Türkiyədəki Səfirliyinin birgə təşkilatçılığı ilə Şuşa Konqres Mərkəzində "Heydər Əliyev və Türk Dünyası" adlı panel təşkil olunub. İlk öncə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib. Tədbirdə Türkiyə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin məsul şəxsləri ilə yanaşı, Türkiyə Böyük Millət Məclisinin deputatları, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirləri, sabiq diplomatlar, SOCAR və bir sıra qeyri-hökumət təşkilatlarının nümayəndələri, həmçinin Türkiyədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.



Paneldə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, TADİV sədri Aygün Attar və digərləri ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki əvəzolunmaz rolu və mirası, türk dünyasının birliyi üçün fəaliyyətindən danışıblar.

Səfir çıxışında Heydər Əliyevin bütün həyatını öz xalqının firavanlığına və inkişafına həsr etdiyini vurğulayıb. O deyib: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımız ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi və bundan sonra suveren Azərbaycan dövləti yarandı. Ümummilli liderin xalqımız qarşısındakı xidmətləri, onun yürütdüyü siyasət nəticəsində Azərbaycan dünyaya açıldı. Ümummilli lider ölkəmizin müstəqilliyini hər şeydən üstün tuturdu. Xalqa olan sevgisi isə qarşılıqlı idi. Azərbaycan xalqı bilirdi ki, dövlətinin ən çətin anında ulu öndər hər zaman onun köməyinə gələcək".

Ümummilli liderin Azərbaycanla yanaşı, Türk dünyası üçün də əvəzsiz xidmətlərindən bəhs edən R.Məmmədov diqqətə çatdırıb ki, onun ən böyük xidmətlərindən biri xalqın öz milli kimliyinə sahib çıxmasını təmin etməsidir. "Ulu öndərin xalqımıza ən böyük mirası ölkəni ondan sonra layiqincə idarə edəcək lider yetişdirmək idi və buna nail oldu. Hazırda bütöv Azərbaycanın Prezidenti İlham Əliyev ümummilli liderimizin başlatdığı parlaq siyasəti uğurla davam etdirir", - deyə səfir bildirib. Diplomat ulu öndər Heydər Əliyevin Türkiyə ilə əlaqələrin möhkəmlənməsindəki xidmətlərini də qeyd edib.

Paneldə Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının Türkiyədəki səfirləri, Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin rəsmisi Ayşe Üzer çıxış edərək Azərbaycan xalqının ümummilli liderinin türk dünyasındakı əvəzolunmaz xidmətlərindən bəhs edib və onun yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ən böyük liderlərindən biri olduğunu vurğulayıblar.

Tədbirdə həmçinin Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, millət vəkili Şamil Ayrım, millət vəkili Ayyüce Türkeş, Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç və digərləri çıxış ediblər.

Çıxışında hər iki dövlətin ulu öndərləri Heydər Əliyev və Mustafa Kamal Atatürkün "Bir millət, iki dövlət" və "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarını xatırladan millət vəkili Şamil Ayrım deyib: "Fikrimcə, Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri Mustafa Kamal Atatürkün Türkiyə xalqı üçün etdikləri ilə eyni müstəvidədir. Xalqlarının çətin dövrlərində hakimiyyətə gələn bu iki lider ölkələrini nəinki bu vəziyyətdən çıxarıb, həm də onun uğurlu gələcəyinin təmin olunmasında, dünya ölkələri arasında öz layiqli yerini tutmasında əvəzsiz xidmətlər göstərib".

Paneldə Hulusi Kılıç Heydər Əliyevin Türk dünyasında inteqrasiya proseslərinə verdiyi töhfəni xatırladıb və Türk Dövlətləri Təşkilatının yaradılması istiqamətində atılan ilk addımların Azərbaycan xalqının ümummilli liderinin adı ilə bağlı olduğunu vurğulayıb. H.Kılıç qeyd edib ki, Heydər Əliyevin davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, balanslaşdırılmış və uğurlu siyasəti sayəsində ümummilli liderin ən əziz arzusu reallaşdı - Azərbaycanın tarixi torpaqları işğaldan azad edildi. "Sevindirici haldır ki, artıq Azərbaycan Respublikasının işğaldan azad edilmiş bütün ərazilərində Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbirlər keçirilir".

Panelin davamında türk jurnalist, professor Aysel Sadak İltaşın "İnsan ürəyi ilə Heydər baba" kitabının təqdimatı baş tutub. Kitabın müəllifi yazılma prosesi haqqında ətraflı məlumat verib.

Dahi öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş digər bir tədbir də Şuşa Konqres Mərkəzində baş tutub. "Buta" gənclər cəmiyyəti, Türkiyənin Gənclər və İdman Nazirliyi, eləcə də Türkiyə hökuməti nəzdində Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Baş İdarəsinin təşəbbüsü ilə ümummilli liderin anadan olmasının 102 illiyinə həsr olunmuş şahmat turniri keçirilib.

Turnirin açılışını simvolizə edən lentin kəsilməsində Azərbaycan, Qırğızıstan və Türkmənistanın Ankaradakı səfirləri, eləcə də Türkiyənin Xarici İşlər Nazirliyinin nümayəndələri və parlament üzvləri iştirak ediblər.

Qeyd edək ki, mayın 10-da Ankarada "Altındağ" Gənclər Mərkəzində Heydər Əliyevin xatirəsinə həsr olunmuş idman turniri keçiriləcək. Həmin gün Ankarada azərbaycanlı tələbə birliklərinin komandalarının iştirakı ilə futbol turniri də baş tutacaq. Mayın 11-də isə Ankarada ümummilli liderin doğum gününə həsr olunmuş bilik yarışı keçiriləcək.

## İzmir

Türkiyənin İzmir vilayətinin Aliağa rayonunda yerləşən Heydər Əliyev məktəbində ulu öndərin anadan olmasının 102-ci ildönümünə həsr olunan "Qızılgül bayramı" adlı tədbir keçirilib.



Tədbirdə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Nəcibə Nəsibova, Türkiyənin İzmir şəhəri üzrə Təhsil İdarəsinin müdiri Ömer Yahşi, Aliağa kaymakamı Zekeriya Güney, Aliağa Bələdiyyəsinin sədri Serkan Acar, məktəbin direktoru, müəllim-şagird kollektivi və digər şəxslər iştirak ediblər.

Tədbirdə Nəcibə Nəsibova Heydər Əliyevin təkcə Azərbaycanın deyil, bütün türk dünyasının unudulmaz liderlərindən biri olduğunu deyib: "Hər bir xalqın öz tarixində iz qoymuş müstəsna liderləri var. Bu liderlər arasında Heydər Əliyev və Qazi Mustafa Kamal Atatürk kimi dahi liderlərimiz də var. Bu gün Türkiyə ilə Azərbaycan arasında "bir millət, iki dövlət" anlaşması Heydər Əliyevin bizə qoyub getdiyi ən dəyərli miraslardan biridir".

İzmir şəhəri üzrə Təhsil İdarəsinin müdiri Ömer Yahşi Heydər Əliyevin türk dünyası üçün əhəmiyyətinə diqqət çəkərək deyib: "Bu gün biz böyük dövlət xadimi, Azərbaycanın müstəqillik və sabitliyinin memarı, mərhum Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü qeyd etmək üçün bir araya gəldik. Çox sevindirici haldır ki, Azərbaycan xalqının cəsarəti, qətiyyəti və öz xalqına olan sarsılmaz inamı ölkəni bugünkü güclü mövqeyə gətirib çıxarıb".

Çıxışlardan sonra Heydər Əliyev mövzusunda rəsm, bəstəkarlıq və şeir müsabiqələrində qalib gələn tələbələrə mükafatlar təqdim olunub.

Proqramın davamında Heydər Əliyev adına məktəbin şagirdlərinin ifasında "Bir həyat, bir millət" oratoriyası tamaşaçılar tərəfindən yüksək qiymətləndirilib. Proqram tələbələrin ifasında Xalq mahnıları və Xalq rəqsləri ilə yekunlaşıb.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 7 may (№92).- S.7.